*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11(6) 2024*

***Araştırma Makalesi | Research Article***
***Geliş tarihi |Received:13.09.2024***
***Kabul tarihi |Accepted:10.11.2024***
***Yayın tarihi |Published:25.12.2024***

**Nadir İsmayılov**

***https://orcid.org/0009-0008-5541-280X***
*Associate Professor, Doctor of Philosophy in Pedagogy, Baku University, Faculty of Education and Management, Department of Educational Management, Azerbaijan, nadir_ismayil56@mail.ru*

**Daşqin Məhəmmədli**

***https://orcid.org/0000-0002-6875-8091***
*Doctor of Philosophy in History, Faculty of Economics and Social Sciences, Baku State University, Azerbaijan, dashqin.muhammedli@gmail.com*

***Atıf Künyesi | Citation Info***

İsmayılov, N. & Məhəmmədli, D. (2024). Qərbi Azərbaycan Tarixinə Dair Sənəd Axınının Təşəkkülü və İnkişafı. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (6), 4483-4496.

# Qərbi Azərbaycan Tarixinə Dair Sənəd Axınının Təşəkkülü və İnkişafı

***Xülasə***

*Qərbi Azərbaycan mövzusu Azərbaycan tarixi və etnik-mədəni irsinin öyrənilməsində mühüm əhəmiyyətə malikdir. Bu istiqamətdə aparılan tədqiqatlar tarixi faktların obyektiv şəkildə araşdırılmasını təmin edən müxtəlif mənbələrə əsaslanır. Qərbi Azərbaycana dair sənəd axınının təşəkkülü və inkişafından bəhs edən bu məqalədə müxtəlif dövrlərdə Qərbi Azərbaycana dair dəyərli mənbələrdən bəhs olunmaqdadır. Bu mənbələr içərisində ilkin mənbələr Qərbi Azərbaycanın tarixi reallıqlarını və ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə siyasətini sübut edən əsas istinad nöqtələridir. Azərbaycan Respublikası 1991-cı ildə müstəqillik əldə etdikdən sonra Qərbi Azərbaycana dair sənəd axını daha da artmağa və tədqiqatçıların aktual mövzusu olaraq geniş şəkildə tədqiq olunmağa başlanmışdır. Qərbi Azərbaycana dair ilkin mənbələrlə yanaşı, ikinci dərəcəli mənbələrdə yaradılmışdır ki, bu da sahəyə dair sənəd axınından istifadəni daha da asanlaşdırmaq məqsədi daşımışdır. Qərbi Azərbaycana dair digər bir mühüm sənəd isə məhz "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası"-dır. Bu konsepsiya tarixi ədalətin bərpası, məcburi köçkünlərin hüquqlarının təmin edilməsi və onların öz doğma torpaqlarına qayıtmaq hüququnun müdafiəsini ehtiva edir. Qayıdış*

BY NC
Creative Commons Licence

*Konsepsiyası yalnız hüquqi yanaşmaları deyil, həm də mədəni və tarixi irsin qorunması üçün kompleks bir strategiyanı əhatə edir. Beləliklə, məqalədə Qərbi Azərbaycana dair sənəd axını hərtərəfli və dərindən araşdırılaraq qələmə alınmışdır.*

***Açar sözlər:*** *Qərbi Azərbaycan, sənəd axını, ilkin mənbələr, ikinci dərəcəli informasiya resursları, Qərbi Azərbaycana Qayıdış Konsepsiyası*

# Formation and development of the documentary flow on the history of Western Azerbaijan

***Abstract***

*The issue of Western Azerbaijan is of great importance in the study of the history and ethno-cultural heritage of Azerbaijan. The researches conducted in this direction are based on various sources that provide an objective analysis of historical facts. In this article, the formation and development of the documentary flow on Western Azerbaijan is discussed, and valuable sources on Western Azerbaijan in various periods are discussed. Among these sources, primary sources are the main reference points proving the historical facts of Western Azerbaijan and the ethnic cleansing policy of Armenians against Azerbaijanis. After the independence of the Republic of Azerbaijan in 1991, the flow of documents on Western Azerbaijan has increased and has become the centre of attention of researchers. In addition to primary sources on West Azerbaijan, secondary sources were also utilised in order to further facilitate the use of document flows in the field. Another important document on West Azerbaijan is the 'Concept of Return to West Azerbaijan'. This concept includes the restoration of historical justice, guaranteeing the rights of internally displaced persons and protecting their right to return to their native lands. The Concept of Return includes not only legal approaches but also a comprehensive strategy for the protection of cultural and historical heritage. Therefore, the article provides a comprehensive and in-depth analysis of the document flow related to Western Azerbaijan.*

***Keywords:*** *West Azerbaijan, document flow, primary sources, secondary sources of information, Concept of Return to West Azerbaijan*

## Giriş

Qərbi Azərbaycan müasir Ermənistan ərazisini əhatə edən tarixi Azərbaycan torpaqları olaraq, zəngin keçmişə və çoxşaxəli mədəni irsə malikdir. Bu bölgə əsrlər boyu qədim dövlətlərin, imperiyaların və müxtəlif etnik qrupların mədəni və siyasi qarşılıqlı əlaqə məkanı olmuşdur. Qərbi Azərbaycan coğrafi mövqeyinə görə strateji əhəmiyyətə malik olub, Cənubi Qafqazın iqtisadi və mədəni inkişafında mühüm rol oynamışdır. Tarixən burada formalaşan Azərbaycan mədəniyyəti, ədəbiyyatı, memarlığı və incəsənəti regionun ümumi mənzərəsini zənginləşdirərək, onun milli kimliyinin əsas sütunlarından birinə çevrilmişdir. Bununla yanaşı, müxtəlif dövrlərdə baş verən siyasi dəyişikliklər, müharibələr və demoqrafik proseslər nəticəsində Qərbi Azərbaycanın tarixi bir sıra mürəkkəb mərhələlərdən keçmişdir. Qərbi Azərbaycan torpaqları Azərbaycan xalqının milli kimliyini formalaşdıran mühüm tarixi

hadisələrin, mədəni və siyasi proseslərin şahididir. Burada Azərbaycan türklərinin çoxəsrlik mədəni irsi, adət-ənənələri, memarlıq abidələri və tarixi sənədləri mövcuddur. Lakin XIX əsrin əvvəllərindən başlayaraq Qərbi Azərbaycan torpaqları kəskin demoqrafik və siyasi dəyişikliklərə məruz qalmışdır. Rusiya-İran müharibələri və Türkmənçay müqaviləsi nəticəsində bölgəyə kütləvi şəkildə ermənilərin köçürülməsi, yerli Azərbaycan əhalisinin isə məcburi öz doğma yurdlarından köçürülməsi prosesləri Qərbi Azərbaycanın etnik strukturunu dəyişdirmişdir. XX əsrdə isə xüsusilə Sovet hakimiyyəti dövründə azərbaycanlıların bu torpaqlardan tamamilə deportasiya edilməsi, tarixi-mədəni irsin təhrif edilməsi və məhv edilməsi prosesi geniş vüsət almışdır. Bu proseslər nəticəsində Qərbi Azərbaycan əhalisi doğma torpaqlarından qovulmuş, bölgənin milli kimliyi sistematik şəkildə dəyişdirilmişdir.

## 1. Məsələnin qoyuluşu

Müasir dövrdə Qərbi Azərbaycan məsələsi həm tarixi həqiqətlərin bərpası, həm də ədalətin təmin edilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Azərbaycan tarixçilərinin və tədqiqatçılarının qarşısında duran əsas vəzifə bu bölgənin tarixi və mədəni irsini hərtərəfli şəkildə öyrənmək, arxiv materiallarını və digər mənbələri araşdırmaq, həmçinin regionun Azərbaycan xalqının tarixi yaddaşındakı yerini bərpa etməkdir. Burada əsas məqsəd, Qərbi Azərbaycanın tarixi, mədəni və ictimai-siyasi xüsusiyyətlərini araşdırmaq, onun Azərbaycan xalqı üçün əhəmiyyətini işıqlandırmaq və bölgənin tarixi taleyinə təsir edən əsas amilləri tədqiq etməkdir. Həmçinin digər bir məqsəd olaraq, Qərbi Azərbaycanın tarixi və mədəni irsini öyrənməklə yanaşı, bölgənin Azərbaycan xalqının həyatındakı rolunu müəyyənləşdirmək məqsədi güdülür.

## 2. Tədqiqatın mənbəşünaslıq bazası

Qeyd edək ki, mövzunun əsas məgzinə dair fundamental elmi əsərlər təhlil olunaraq, məqalənin əsas araşdırma sferasına daxil edilmişdir (Xəlilov, 1959; Bayramov, 2012; İsmayılov, 2023; Muradova, 2024). Bir sıra müəlliflər tərəfindən (özüm həmmüəllif olmaqla) bu istiqamətdə kompleks şəkildə araşdırmalar aparılmış, sənəd axınına dair elmi-tədqiqat əsərləri xarici indeksləşdirilmiş jurnallarda dərc olunaraq, ixtisasçı kadrların müxtəlif informasiya tələbatlarının ödənilməsinə və elmi potensialının inkişafına öz müsbət təsirini göstərmişdir. Bunlara misal olaraq: (İsmayılov; Ağayeva, 2010; Sadigova, 2021; İsmayilov & Khalafova, 2022A; İsmayilov & Khalafova, 2022b; İsmayilov, 2022; İsmayilov & Khalafova, 2022; İsmayilov& Bayramova, 2022; İsmayilov & Mahammadli & Khudiyeva, 2022; İsmayilov & Khudiyeva, 2022; İsmayilov & Ganbarova, 2022; İsmayilov & Gasimli, 2022; Gasimli, 2022; İsmayilov & Guliyev, 2022; İsmayilov & Sadigova, 2022; İsmayilov & Gasimli, 2023; İsmayilov, Mammadov, 2023; İsmayilov & Əfəndiyev, 2023; İsmayilov &

Khalafova, 2023a; İsmayilov & Khalafova, 2023b; İsmayilov, İslamov & Yusifova, 2024; İsmayilov & Khalafova, 2024a; İsmayilov & Khalafova, 2024b; Khalafova & İsmayilov, 2024).

### 3. Problemin təhlili

Qərbi Azərbaycanın tarixinə dair mənbələr müxtəlif dövrlərin yazılı sənədləri və arxeoloji materialları ilə zəngindir. İlk sənədlər arasında qədim Urartu dövlətinə aid mixi yazılar və Əhəmənilər dövrünə aid inzibati sənədlər xüsusilə əhəmiyyətlidir. Hələ e.ə. VIII əsrə aid Urartu mixi yazılarında bu bölgəyə dair məlumatlar yer alır və bu mənbələrin təhlili göstərir ki, İrəvan və Göyçə gölü hövzəsindəki qədim yer-yurd adları ermənilərlə bağlı deyil. Əksinə, bu toponimlər bölgənin qədim türkdilli tayfalarla əlaqəli olduğunu sübut edir. Həmçinin qeyd etmək lazımdır ki, Parfiya dövlətinin sülələrindən olan Ərsak sülaləsinin türk mənşəli olduğu barədə ilk elmi məlumat XIX əsrdə Fransada təqdim edilmişdir. Bu mövzuya ilk dəfə Fransa "Asiya Cəmiyyəti"nin üzvü M.J.Sen-Martin diqqət yetirmişdir. O, 1850-ci ildə Parisdə çap etdirdiyi *"Arsakilərin Tarixinə Dair Fraqmentlər"* adlı əsərində İskit-Sak boylarının turanlılar kimi tanındığını, onların yaşadıqları ərazilərin isə Turan adlandırıldığını bildirmişdir. M.J.Sen-Martin tədqiqatını qədim mənbələrə əsaslanaraq hazırlamış və bu fikirlə Ərsakilərin türk köklərinə işarə etmişdir. Bu yanaşma, tarixin həmin dövründə türkdilli tayfaların Cənubi Qafqaz və ətraf regionlarda siyasi və mədəni mövcudluğunu vurğulamaq baxımından xüsusi önəm daşıyır (Bayramov, 2012). Erkən orta əsrlərdə regionda İslamın yayılması ilə ərəb dilində yazılmış hüquqi və dini mətnlər ortaya çıxmışdır. Orta əsr Azərbaycan dövlətlərinin (Səlcuqlar, Eldənizlər, Qaraqoyunlu və Səfəvilər) idarəçilik sistemində isə müxtəlif fərmanlar, mülkiyyət hüquqlarına dair sənədlər və vergi reyestrləri mühüm yer tutmuşdur. Orta əsrlərdə sənəd axını əsasən dövlət idarəçiliyinin və iqtisadi münasibətlərin tənzimlənməsi ilə bağlı olmuşdur. Səfəvilər dövründə Qərbi Azərbaycan bölgəsində dövlət sənədlərinin dəqiq və sistemli şəkildə hazırlanması üçün xüsusi katiblik xidmətləri fəaliyyət göstərmişdir. Bu sənədlər təkcə inzibati məlumatları deyil, həm də əhalinin sosial və iqtisadi vəziyyətini əks etdirən məlumat mənbəyi kimi mühüm rol oynamışdır.

### 4. Qərbi Azərbaycanın mərkəzi hissəsi hesab edilən İrəvan bölgəsi

Qərbi Azərbaycanın mərkəzi hissəsi hesab edilən İrəvan bölgəsi Azərbaycanın tarixi-coğrafi məkanlarından biri olaraq, zəngin və mürəkkəb tarixi ilə seçilir. Bu ərazi müxtəlif dövlətlərin siyasi və hərbi maraqları çərçivəsində strateji əhəmiyyət daşımış, bu səbəbdən dəfələrlə işğallara və idarəetmə dəyişikliklərinə məruz qalmışdır. Oqtay Əfəndiyevin "Azərbaycan Səfəvilər dövləti" (1994) əsərində vurğulandığı kimi, 1590-cı il İstanbul sülhü nəticəsində Səfəvilər dövlətinin bir sıra əraziləri, o cümlədən Çuxursəd bəylərbəyliyinə daxil

olan İrəvan, Osmanlı İmperiyasının tərkibinə qatılmışdır. Osmanlı hakimiyyəti dövründə İrəvan bölgəsi "Rəvan əyaləti" adı ilə tanınmış və Osmanlı inzibati sisteminə inteqrasiya edilmişdir. Bu dövrdə bölgənin idarə edilməsi və iqtisadi resurslarının təhlili məqsədilə rəsmi statistik sənədlər hazırlanmışdır ki, bunlara misal olaraq "Rəvan əyalətinin müfəssəl dəftəri", "Rəvan əyalətinin icmal dəftəri" və "Dəftəri-sicili-livayi-Rəvan" kimi mənbələri göstərmək olar. Bu dəftərlər Osmanlı dövlətinin tipik inzibati və vergi sistemi çərçivəsində tərtib edilmişdir və bölgənin demoqrafik, iqtisadi və sosial vəziyyəti haqqında ətraflı məlumatları ehtiva edir (Bayramov, 2012). Z. Bünyadov və H.Məmmədovun 1996-cı ildə qələmə aldıqları "İrəvan əyalətinin icmal dəftəri" adlı əsərdə Osmanlı hakimiyyəti dövründə İrəvan bölgəsi ilə bağlı mühüm məlumatlar əks olunmuşdur. Bu mənbə, Osmanlı idarəçilik sisteminin xüsusiyyətlərini, bölgənin sosial-iqtisadi və etnik mənzərəsini əks etdirməklə yanaşı, həmin dövrün inzibati-siyasi tarixi barədə də ətraflı məlumat verir. Əsərdə digər osmanlı dəftərləri haqqında da məlumat verilmişdir ki, bu sənədlər tədqiqatçılar üçün İrəvanın keçmişini araşdırmaq baxımından böyük əhəmiyyət kəsb edir.

- "İrəvan əyalətinin müfəssəl dəftəri" - 1590-cı ildə tərtib edilmişdir;
- "İrəvan əyalətinin icmal dəftəri" – 1595-ci ildə tərtib edilmişdir;
- "Dəftəri-siçili-livayi-Rəvan" – 1603-cü ildə tərtib edilmişdir;
- "İrəvan əyalətinin müfəssəl dəftəri" – 1728-ci ildə tərtib edilmişdir;
- "İrəvan əyalətinin icmal dəftəri" – 1728-ci ildə tərtib olunmuşdur

Bu dəftərlər yalnız İrəvanın sosial və iqtisadi vəziyyəti haqqında deyil, həmçinin bölgənin mədəni-ictimai və siyasi dinamikası barədə də ətraflı məlumat əldə etməyə imkan verir. Onların təhlili, Osmanlı idarəetmə sisteminin İrəvan kimi strateji əhəmiyyətə malik bölgələrdə necə tətbiq edildiyini öyrənmək baxımından qiymətlidir. Bundan əlavə, dəftərlərdə əks olunan məlumatlar İrəvan əhalisinin etnik və dini tərkibini, onların gündəlik həyatı və təsərrüfat fəaliyyətini də ətraflı şəkildə işıqlandırır. Bu mənbələr, həmçinin Osmanlı-Səfəvi münasibətlərinin təsiri altında formalaşan regional siyasət və mədəniyyətlə bağlı dəyərli məlumatlar təqdim edir.

## 5. XIX əsrin əvvəllərində Qərbi Azərbaycanın inzibati-siyasi vəziyyəti

XIX əsrin əvvəllərində Qərbi Azərbaycanın inzibati-siyasi vəziyyəti Rus-İran müharibələri nəticəsində dəyişikliklərə uğradı. Türkmənçay və Gülüstan müqavilələrindən sonra bölgənin demoqrafik strukturu dəyişmiş, köçürmə siyasəti nəticəsində sənəd axınının xarakteri də fərqli istiqamət almışdır. Bu dövrdə müxtəlif etnik qrupların hüquq və mülkiyyət məsələləri ilə bağlı sənədlər üstünlük təşkil etmişdir. XX əsrin əvvəllərindən başlayaraq Ermənistanın tərkibində olan Qərbi Azərbaycanda sənədləşmə prosesi erməni-türk

münasibətləri kontekstində əhəmiyyətli dəyişikliklərə məruz qaldı. Sovet dövründə sənəd axını daha çox inzibati və siyasi xarakter daşıyırdı. Bu dövrün sənədləri arasında kollektivləşmə, deportasiya və milli münasibətlərin tənzimlənməsi ilə bağlı materiallar xüsusi yer tutur.

### 6. Sovet hamiyyəti dövründə Qərbi Azərbaycanla bağlı vəziyyət

Sovet hamiyyəti dövründə Qərbi Azərbaycanla bağlı sənədlər içərisində 1949-cu ildə Əbdül Əliyev tərəfindən tərtib olunmuş "Петрография Сарматских отложений Западного Азербайджана" ("Qərbi Azərbaycanın Sarmat çöküntülərinin petroqrafiyası") əsəri Qərbi Azərbaycanın Sarmat yataqlarının tədqiq olunaraq öyrənilməsi ilə bağlıdır. Qərbi Azərbaycana dair digər bir ilkin mənbə "Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri" əsəridir. C. Ə. Xəlilov tərəfindən tərtib olunmuş bu mənbə 1959-cu ildə 172 səhifə həcmində çapdan çıxmışdır. Əsər:

- I Fəsil. Qərbi Azərbaycanda tunc dövrü və dəmir dövrünün əvvəllərində yaşayış yerləri;
- II Fəsil. Qərbi Azərbaycanın tunc dövrünün axırı və dəmir dövrünün əvvəllərinə aid qədim abidələri;
- III Fəsil. İqtisadi və ictimai quruluş haqqında

adlanan bölmələrdən ibarətdir.

Əsər XIX əsrin axırları və XX əsrin əvvəllərində V. Belhk, A. A. İvanovski və E. Reslerin, habelə 1938-ci ildə J.İ.Hümmelin aparmış olduğu arxeoloji qazıntılar, İ.M.Cəfərzadənin rəhbərliyi altında siklop tikintilərini öyrənmək məqsədilə təşkil edilmiş olan bir sıra arxeoloji kəşfiyyatlar və əldə edilmiş olan təsadüfi tapıntılar əsasında yazılmışdır. Məhz qeyd edilənlərdən deyə bilərik ki, əsər Qərbi Azərbaycanın tarixini araşdırmaq baxımından dəyərli bir sənəd hesab oluna bilər.

Qərbi Azərbaycan mövzusu üzrə aparılan elmi tədqiqatların, ilkin mənbələrin və dövri mətbuat nəşrlərinin sayında əhəmiyyətli artımı müstəqillik dövrünə təsadüf edir. Xüsusilə, 1990-cı ildən sonra bu mövzu Azərbaycanın ictimai, elmi və mədəni həyatında mühüm yer tutmuşdur. Müstəqillik illərində tarixi yaddaşın bərpası və etnik-mədəni irsin öyrənilməsi istiqamətində Qərbi Azərbaycanla bağlı çoxsaylı araşdırmalar və elmi əsərlər meydana çıxmışdır. Bu dövrdə diqqətəlayiq dərəcədə artan tədqiqatlar Qərbi Azərbaycanın tarixi coğrafiyası, etnik tərkibi, toponimiyası, dil xüsusiyyətləri və mədəni irsi kimi mövzuları əhatə etmişdir. Həmçinin, bu mövzuya həsr olunan dövri mətbuat materialları və arxiv sənədləri həmin dövrdə milli kimliyin gücləndirilməsi və tarixi həqiqətlərin üzə çıxarılmasında mühüm rol oynamışdır (Khalafova & İsmayilov, 2024).

## 7. Azərbaycanın müstəqillik dövründə Qərbi Azərbaycan mövzusu

Azərbaycanın müstəqillik dövründə Qərbi Azərbaycan mövzusuna göstərilən maraq, bu ərazinin tarixi və mədəni dəyərlərinin daha dərindən öyrənilməsi və gələcək nəsillərə çatdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu yanaşma yalnız elmi tədqiqatlarla məhdudlaşmır, eyni zamanda, Qərbi Azərbaycan irsinin təbliği və onun beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində də geniş imkanlar yaradır. Aşağıdakı diaqramda Qərbi Azərbaycana dair sənəd axınının inkişafı 1990-2024-cü illər üzrə onilliklər şəklində faiz nisbəti ilə verilmişdir:

***Qərbi Azərbaycana dair sənəd axınının inkişafı 1990-2024-cü illər***

Qərbi Azərbaycan haqqında olan digər bir ilkin mənbə İbrahim Bayramovun *"Qərbi*




Azərbaycan: tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti (Bakı, 2011, s. 288) adlı kitabıdır və bu kitab Qərbi Azərbaycanın tarixi, etnik-mədəni irsi və Ermənistanın azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə siyasətini əhatəli şəkildə tədqiq edən mühüm elmi əsərlərdən biridir. Kitabda Qərbi Azərbaycanın tarixi torpaqlarında yaşayan azərbaycanlıların köklü yaşayış məskənlərindən zorla deportasiya olunması, bu prosesin müxtəlif mərhələləri, onun siyasi və demoqrafik nəticələri geniş şəkildə işıqlandırılmışdır. Əsər həm tarixi mənbələrə, həm də arxiv sənədlərinə əsaslanaraq, Ermənistanın məqsədyönlü etnik təmizləmə siyasətinin real faktlarla təsdiqini verir. Bu əsər mövzu üzrə tədqiqat aparan alimlər, tələbələr və ictimaiyyət üçün Qərbi Azərbaycanla bağlı vacib istinad mənbələrindən biri hesab olunur. Kitab həmçinin, oxuculara tarixi yaddaşın qorunmasının və milli irsin dərk edilməsinin əhəmiyyətini xatırladır. Müəllifin bu əsərində həmçinin Qərbi Azərbaycan coğrafiyası, toponimiyası və dialektologiyası ilə bağlı nəşr edilmiş mühüm elmi əsərlərinin və digər tədqiqatçıların əsərlərindən bəzilərinin adları qeyd olunmaqdadır:

- ✓ "Qərbi Azərbaycan toponimlərinin tərkibində işlənən söz və coğrafi terminlər lüğəti" (Bakı, "Elm", 2000);
- ✓ "Qərbi Azərbaycanın türk mənşəli toponimləri" (Bakı, "Elm", 2002);
- ✓ "Qərbi Azərbaycan toponimləri sistemi" (Bakı, "Elm", 2005);
- ✓ "Qərbi Azərbaycan şivələrinin leksikası" (Bakı, "Elm və Təhsil", 2011);
- ✓ H.Mirzəyevin "Qərbi Azərbaycanın Dərələyəz mahalı" (Bakı, "Elm", 2004) əsəri;
- ✓ Ə.Ələkbərlinin "Qərbi Azərbaycan" adlı iki cildlik əsəri:
  - I cild: Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları) (Bakı, "Ağrıdağ", 2000),
  - II cild: Zəngibasar, Qəmərli və Ellər rayonları (Bakı, "Ağrıdağ", 2002);
- ✓ "Qərbi Azərbaycan abidələri" (Bakı, "Nurlan", 2006);
- ✓ "Qərbi Azərbaycanın dialektoloji lüğəti" (Bakı, "Ağrıdağ", 2009) (Bayramov, 2012).

Bu əsərlər Qərbi Azərbaycanın coğrafi, tarixi və mədəni irsinin öyrənilməsinə, həmçinin onun zəngin toponim və dialektoloji xüsusiyyətlərinin araşdırılmasına mühüm töhfə vermişdir. İlkin mənbələrlə yanaşı ikinci dərəcəli sənədlərin də sənəd axınının tədqiqində mühüm rolu vardır. Qərbi Azərbaycana dair 2023-cü ilə kimi ayrıca bir biblioqrafik göstərici olmamışdır. “Qərbi Azərbaycan: biblioqrafik göstərici” adlı fundamental nəşr 2023-cü ildə AMEA Mərkəzi Elmi Kitabxanası tərəfindən hazırlanaraq nəşr edilmişdir. Bu göstərici Qərbi Azərbaycanla bağlı elmi biliklərin sistemləşdirilməsi və ictimaiyyətə çatdırılması məqsədini daşıyır. Göstərici Qərbi Azərbaycan mövzusunda indiyədək aparılmış tədqiqatları, yazılmış monoqrafiyaları, məqalələri və digər elmi əsərləri bir araya gətirərək, sahədəki biliklərə ümumi baxış təqdim edir. “Qərbi Azərbaycan: biblioqrafik göstərici” bir neçə mühüm məqsədə xidmət edir:

1. *Elmi məlumatların sistemləşdirilməsi*: bölgə ilə bağlı mövcud olan müxtəlif elmi materialların bir araya gətirilməsi və təsnifatı tədqiqatçılar üçün faydalı bir resurs təqdim edir.
2. *Tədqiqatların təşviqi:* mövzu ilə bağlı yeni araşdırmalar aparmaq istəyən alim və tədqiqatçılara istiqamət verərək, onların işini asanlaşdırır.
3. Qayıdış Konsepsiyasına dəstək: Nəşr, Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş “Qərbi Azərbaycana Qayıdış Konsepsiyası” çərçivəsində həyata keçirilən fəaliyyətlərin elmi əsaslandırılmasında və geniş ictimaiyyətə çatdırılmasında mühüm rol oynayır. Biblioqrafik göstərici Qərbi Azərbaycan mövzusunda yazılmış əsərləri geniş əhatə dairəsində təqdim edir. Buraya aşağıdakılar daxildir:

- Monoqrafiyalar və kitablar,
- Akademik məqalələr,
- Arxiv materialları və sənədlər,

- Tarixi, etnoqrafik, mədəni və sosial-siyasi mövzularda aparılmış tədqiqatlar.

Bu göstərici yalnız Qərbi Azərbaycan əhalisinin tarixi və mədəni irsi ilə bağlı materialları deyil, həm də bölgənin sosial-siyasi problemləri, deportasiya siyasəti, məcburi köçkünlərin hüquqları və digər aktual məsələlərlə bağlı məlumatları ehtiva edir. “Qərbi Azərbaycan: biblioqrafik göstərici” geniş elmi məzmunu və əhatə dairəsi ilə diqqət çəkir. Kitabda Qərbi Azərbaycanla bağlı məlumatlar müxtəlif elmi və praktiki sahələr üzrə təsnif edilmiş və sistematik şəkildə təqdim olunmuşdur. Nəşr, mövzunun müxtəlif aspektlərini əks etdirən 9 əsas bölmədən ibarətdir və məlumatlar həm xronoloji, həm də əlifba qaydasına uyğun təsnif edilmişdir. Bölmələr:

**1.** Ümumi bölmə (burada 253 material əhatə olunub),

**2.** Din (burada 49 material əhatə olunub),

**3.** İctimai və humanitar elmlər (burada 515 material əhatə olunub),

**4.** Riyaziyyat. Təbiət elmləri (burada 10 material əhatə olunub),

**5.** Səhiyyə. Texnika. Kənd təsərrüfatı (burada 14 material əhatə olunub),

**6.** İncəsənət (burada 195 material əhatə olunub),

**7.** Dilçilik. Linqvistika. Filologiya (burada 745 material əhatə olunub),

**8.** Coğrafiya. Tarix (burada 1709 material əhatə olunub),

**9.** Dissertasiya və avtoreferatlar (burada 116 material əhatə olunub) (İsmayılov, 2023).

***Bölmələr üzrə sənədlərin əhatə olunmasını aşağıdakı diaqramda da görmək mümkündür***




| | Ümumi bölmə | Din | İctimai və humanitar elmlər | Riyaziyyat. Təbiət elmləri | Səhiyyə. Texnika. Kənd təsərrüfatı | İncəsənət | Dilçilik. Linqvistika. Filologiya | Coğrafiya. Tarix | Dissertasiya və ya avtoreferatlar |
|---|---|---|---|---|---|---|---|---|---|
| Materiallar | 253 | 49 | 515 | 10 | 14 | 195 | 745 | 1709 | 116 |

Kitabda Azərbaycan, rus və digər xarici dillərdə yazılmış kitab və məqalələr toplanmışdır. Hər bir bölmə mövzunun müasir elmi tələblərə uyğun təsnifatını təmin edərək, gələcək tədqiqatlar üçün geniş məlumat bazası yaradır.

Göstərici Azərbaycan elmi ictimaiyyəti üçün yeni və fundamental bir vasitədir. Bir tərəfdən, Qərbi Azərbaycan mövzusunda mövcud olan bütün məlumatları vahid mənbədə toplayaraq sahə üzrə tədqiqat işlərinin səmərəliliyini artırır, digər tərəfdən isə Azərbaycanın tarixi və hüquqi iddialarını beynəlxalq ictimaiyyətə elmi müstəvidə təqdim etmək üçün zəngin materiallar təqdim edir. "Qərbi Azərbaycan: biblioqrafik göstərici" həm elmi-tədqiqat işləri üçün etibarlı resurs, həm də Qərbi Azərbaycanla bağlı məlumatların genişləndirilməsi və təbliği istiqamətində əhəmiyyətli addımdır (Aliyev, 1959). Qərbi Azərbaycan ilə bağlı müasir dövrdə ölkəmizdə atılan ən mühüm addım biri Qərbi Azərbaycan İcmasının yaradılmasıdır. Qərbi Azərbaycan İcması Qərbi Azərbaycandan (indiki Ermənistan ərazisi) məcburi köçkün düşmüş azərbaycanlıların hüquqlarını müdafiə etmək, tarixi, mədəni irsini qorumaq və gələcək nəsillərə ötürmək məqsədilə fəaliyyət göstərən bir təşkilatdır. Bu icma öz hüquqi varisliyini 1989-cu il dekabrın 28-də yaradılmış "Azərbaycan Qaçqınlar Cəmiyyəti" təşkilatından götürür. Sözügedən cəmiyyət, 1992-ci il fevralın 14-də dövlət qeydiyyatına alınmış, 2014-cü ilin sentyabrında isə "Azərbaycan Qaçqınlar Cəmiyyəti İctimai Birliyi" adı ilə yenidən qeydiyyatdan keçmişdir. 2022-ci il avqustun 3-də keçirilmiş Ümumi Yığıncaqda təşkilatın adı dəyişdirilərək "Qərbi Azərbaycan İcması" adlandırılmış və yeni Nizamnaməsi qəbul edilmişdir (Muradova, 2024). Bu dəyişiklik, icmanın fəaliyyət istiqamətlərini daha konkretləşdirmək və əsas məqsədlərini daha dəqiq əks etdirmək üçün atılmış mühüm addım olmuşdur.

Qərbi Azərbaycan İcmasının ən diqqətəlayiq işlərindən biri də məhz "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası"nı hazırlmaqdır. "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası" indiki Ermənistan ərazisindən zorla qovulmuş azərbaycanlıların öz tarixi yurdlarına sülh yolu ilə və beynəlxalq hüquqa uyğun şəkildə geri dönməsini təmin etməyi hədəfləyən strateji bir sənəddir. Bu Konsepsiya İcmanın fəaliyyətini planlı və istiqamətlənmiş şəkildə həyata keçirmək üçün əsas çərçivəni müəyyən edir. Konsepsiyanın əsas məramı, zorla öz torpaqlarından çıxarılmış azərbaycanlıların doğma yurdlarına sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə qayıdışını təmin etməkdir. Bu məqsədlə, İcmanın fəaliyyət istiqamətləri aşağıdakı əsas prinsiplər üzərində qurulmuşdur:

***1. Sülh və beynəlxalq hüquq çərçivəsində qayıdış:*** azərbaycanlıların qayıdış hüququnun beynəlxalq hüquq normalarına uyğun təmin edilməsi üçün hüquqi mexanizmlər hazırlanır.

***2. Təhlükəsizlik və insan ləyaqətinin qorunması:*** qayıdan şəxslərin təhlükəsiz yaşayış mühitində və insan hüquqlarına tam uyğun şəkildə yaşayışını təmin etmək əsas hədəflərdən biridir.

***3. Tarixi ədalətin bərpası:*** Ermənilərin apardığı etnik təmizləmə siyasətinin nəticələrinin aradan qaldırılması və bölgədəki tarixi-mədəni irsin qorunması prioritetdir.

***4. Beynəlxalq təşəbbüslərin artırılması:*** Qərbi Azərbaycan İcması beynəlxalq ictimaiyyəti məlumatlandırmaq və qayıdış hüququnun təmin edilməsi üçün beynəlxalq təşkilatlarla əməkdaşlığı genişləndirməyi planlaşdırır.

Konsepsiya çərçivəsində İcmanın həyata keçirəcəyi əsas tədbirlər:

- ❖ Beynəlxalq hüquqi platformalarda qayıdış hüququnun müdafiəsi üçün hüquqi sənədlərin hazırlanması;
- ❖ Xarici ölkələrdə yaşayan Qərbi Azərbaycan əsilli şəxslərin hüquqlarının müdafiəsi;
- ❖ Ermənistan hökuməti ilə dialoq mexanizmlərinin yaradılması;
- ❖ İctimai maarifləndirmə və tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün kampaniyaların keçirilməsi;
- ❖ Geri qayıdış üçün təhlükəsiz, iqtisadi cəhətdən dayanıqlı və sosial baxımdan uyğun şəraitin yaradılmasına yönəlmiş strategiyaların hazırlanması (Muradova, 2024).

"Qayıdış Konsepsiyası" yalnız bir sənəd deyil, həm də Qərbi Azərbaycan İcmasının əsas məqsədini ifadə edən fəaliyyət planıdır. Bu Konsepsiya, həm Azərbaycan cəmiyyəti daxilində, həm də beynəlxalq aləmdə Qərbi azərbaycanlıların hüquqlarının müdafiəsi məsələsinə diqqət çəkməklə, onların tarixi torpaqlarına geri dönmə hüququnu təmin etmək üçün əhəmiyyətli bir addımdır (Xəlilov, 1959). Qeyd edilənlərlə yanaşı həmçinin deyə bilərik ki, dövrün tələblərinə uyğun olaraq Qərbi Azərbaycana dair sənəd axını təkcə ənənəvi formada deyil, elektron informasiya vasitələri vasitəsi ilə də təbliğ olunub yayılmaqdadır. Məhz elektron informasiya vasitələrindən istifadə edərək Qərbi Azərbaycanla bağlı həqiqətlərin bütün açıqlığı ilə dünyaya tanıdılması həyata keçirilməkdədir.

**Nəticə**

Beləliklə deyə bilərik ki, Qərbi Azərbaycan tarixinə dair sənəd axınının təşəkkülü və inkişafı, bölgənin zəngin tarixi və mədəni irsinin qorunub saxlanılması, öyrənilməsi və gələcək nəsillərə çatdırılması üçün mühüm bir vasitədir. Bu sənədlər, yalnız keçmişə dair məlumat mənbəyi deyil, həm də bölgənin əhəmiyyətini təsdiq edən elmi və siyasi dəlillər olaraq xüsusi əhəmiyyət daşıyır. Osmanlı dövründə aparılan dəftərlərdən başlayaraq, müasir dövrdə sistemləşdirilmiş biblioqrafik göstəricilərə qədər müxtəlif sənədlər Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, sosial-iqtisadi vəziyyəti və əhalinin etnik tərkibi haqqında dəyərli məlumatlar

təqdim edir. Bu sənədlərin araşdırılması bölgədə aparılmış etnik təmizləmə siyasətinin nəticələrini aşkar etməyə, həmçinin qayıdış hüququnun müdafiəsi üçün hüquqi və siyasi müstəvidə istifadə edilməyə şərait yaradır. Sənəd axınının təşəkkülü və inkişafı ilə bağlı fəaliyyətlər, beynəlxalq hüquq normalarına əsaslanaraq, həm Azərbaycan cəmiyyətinə, həm də dünya ictimaiyyətinə Qərbi Azərbaycanın əsl tarixi gerçəkliklərini çatdırmaq üçün əhəmiyyətli bir vasitədir. Bununla yanaşı, sənəd axınının müasir texnologiyalarla inteqrasiyası və rəqəmsallaşdırılması, bu materialların qlobal miqyasda daha əlçatan olmasını təmin edərək, gələcək elmi tədqiqatların keyfiyyətini artıracaqdır. Nəticə etibarilə, Qərbi Azərbaycan tarixinə dair sənəd axını yalnız bölgənin tarixi irsini qorumaqla məhdudlaşmır, həm də Azərbaycan xalqının mədəni və hüquqi haqlarını bərpa etmə yolunda mühüm rol oynayır. Bu istiqamətdə davamlı işlərin görülməsi, bölgə ilə bağlı həqiqətlərin dünyaya çatdırılması və gələcək nəsillərə ötürülməsi baxımından strateji əhəmiyyətə malikdir.

**Ədəbiyyat Siyahısı**

Aliyev, A. (1949). *Petrografiya sarmatov Zapadnogo Azerbaydzhana.* Izd-vo Akkad. nak Azerbaydzhan. SSR.

Bayramov, İ. M. (2012). *Qərbi Azərbaycan: tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti*. Çıraq.

Gasimli, H. H. (2022). Researching of the document flow related to tourism in libraries (Based on local and foreign library experience. *İnternational Paris Conference on Social Science*. VII. (113-117). France-Paris.

Gasimli, H. H. (2023). Development Directions of Library-Information Supply of Tourism at Higher Education Institutions (Based on the Work Experience of Baku State University and Azerbaijan Tourism and Management University). *Ukraine, Dnipropetrovsk: Scientific and Theoretical Almanac Grani, 1* (26), 38-43.

Xəlilov, C. Ə. (1959). *Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri: Şamxor və Zəyəm çayları hövzələri*. AzSSR EA.

Ismailov, K., & Gasimli, H. (2023). Study of the Document Flow on the Field of Tourism in the National Library of Azerbaijan Named After MF Akhundov (Based on the analysis of "Annual Azerbaijan Bibliography" and "New books: an annotated bibliographic index"). *Akademik Tarih ve Düşünce Dergisi, 10* (6), 2467-2474.

Ismayilov, N. & Khalafova, S. (2023b). The Modern Situation of Using Bibliometric Methods in Library-Information Activity in the Republic of Azerbaijan. *Scientific and Theoretica Almanac Grani, 26* (2), 106-110. https://doi.org/10.15421/172333

Ismayilov, N. I, Mahammadli, D., & Khudiyeva, V. (2022). Dijital Ortamda Bilgi Arama Yöntemleri ve Araçları. *Bilimsel ve Teorik Takvim Grani , 25* (5), 31-34.

Ismayilov, N. I. & Khalafova, S.A. (2022b). Library Sites that Provide Information to Users (Based on Domestic and Foreign Library Experience). *GRANI Journal*, *25* (2), 22-28.

Ismayilov, N. I. & Khalafova, S. A. (2022a). General Characteristics of Local Lore Documental Network Resources of the Libraries of Azerbaijan (Based on library collection). *Technium Soc. Sci. J.*, *33*, 628-637.

Ismayilov, N. I. & Khalafova, S. A. (2023a). On the typology of document-information resources in the field of economy. *Universidad Y Sociedad*, *15* (6), 224-232.

Ismayilov, N. I. & Khudiyeva, V. (2022). Assessment of digital knowledge and research skills and overview of on going work at the national level, forecasting. Concepts of digitization. *Technium Social Sciences*, *35*, 593-600.

Ismayilov, N. I. & Gasimli, H. (2022). The main activities of the Republic's Tourism Information Centers. *GRANI Journal*, *25* (6), 16-22.

Ismayilov, N. I. & Guliyev, O. (2022). Creation and formation of information resources for children. *Technium Social Sciences*, *36*, 735-742.

Ismayilov, N. I. & Mammadov, A. (2023). National Libraries: Typology, Main Functions and Modern Directions of Development.*GRANI Journal*, *26* (1), 15-20.

Ismayilov, N. I. & Sadigova, S. (2022). Synergetic foundations of the methodology of modern bibliography. *GRANI Journal*, *26* (5), 45-51.

Ismayilov, N. I. (2022). Library Resources: Allocation and Usage Problems (Comparative Analysis of the World and Regional Practice). *Scientific and Theoretical Almanac Grani*, *26*(1), 38-43.

Ismayilov, N., & Bayramova, I. (2022). *Methodology of Research and Study of Document Flow in the Field of Tourism (Based on Experience from Local Libraries). Grani*, *25* (3), 70-76.

Ismayilov, N.I. & Ganbarova, Sh. (2022). Organization and development of document flow on children's literature in Azerbaijan (Second half of the 19th century and the beginning of the 20th century). *Technium Social Sciences*, 34, 654-660.

İrəvan əyalətinin icmal dəftəri. (1996). Azərb. Resp. Elmlər Akad., Şərqşünaslıq İn-tu; araşdırma. (tərc., qeyd və əlavələrin müəl.: Z. Bünyadov, H. Məmmədov (Qaramanlı).Elm.
İsmayılov, X. (2023). *Qərbi Azərbaycan: biblioqrafik göstərici*. Elm.

İsmayılov, N. & Əfəndiyeva, F. (2023). The Role of Mathematical Methods in the Formation of Scientific Concepts (Elementary and Mathematics). *Akademik Tarih ve düşünce dergisi*, *11* (4), 2239-2247.

İsmayılov, N. & Khalafova, S. (2024b). Traditional and electronic information resources of the National Archives Administration of the Azerbaijan Republic. *Scientific and theoretical almanac Grani*, *27* (3), 44-48. https://doi.org/10.15421/172448

İsmayılov, N. İ. & Ağayeva, X. T. (2010). *Regionların sosial-iqtisadi inkişafının informasiya təminatı həyata keçirilir.* Azərbaycan.

İsmayılov, N. İ., Mahammadli, D. & Gasimli, H. H. (2023). Organization, development and current situation of the document flow on tourism in the regions (based on the example of the Shaki-Zagatala economic region). *Ukraine, Dnipropetrovsk: Scientific and Theoretical Almanac Grani, 2* (26), 122-127.

İsmayılov, N., Khalafova, S. (2024a) Stages of development of documentary resources from language studies in Azerbaijan. *Scientific and theoretical almanac Grani, 27* (2), 70-75. https://doi.org/10.15421/172433

İsmayılov, N., Islamov, I. & Yusifova, G. (2024). Information resources from philosophy in Azerbaijan. *Scientific and theoretical almanac Grani, 27* (1), 86-90.

Khalafova, S., & Ismayilov, N. (2024). Information Provision of Tourism and Economy in Azerbaijan and Its Bibliometric Analysis. *Geojournal of Tourism and Geosites*, *56*(4), 1809-1815.

Qayıdış Konsepsiyası: İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiya. (2023). *Qərbi Azərbaycan İcması*.Elm və təhsil.

Muradova, H. S. (2024). *Qərbi Azərbaycan.* Mücrü.

Sadigova, S. A. (2021). Information supply of state bodies: modern condition and perspectives (in English). *The 6th International scientific and practical conference "World science: problems, prospects and innovations" (February 23-25, 2021).* (89-98). Perfect Publishing.

Ismayilov N. I. & Khalafova, S. A. (2022). The role of digital marketing in the management of library information resources. *академічний огляд, 2* (57), 194-202.